**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

# SƏRƏNCAMI

№ 98 "23" May 2025-ci il

## Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun adının dəyişdirilməsi və yeni tərkibinin təsdiq edilməsi haqqında

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun 19-1.2-ci maddəsinə əsasən hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 367 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nın tələblərinin təmin edilməsi məqsədilə mövcud Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun adının dəyişdirilməsinə və yeni tərkibinin təsdiq edilməsinə zərurət yaranmışdır.

Qeyd olunanları, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 367 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nın 6.1-ci, 6.3-cü və 6.4-cü bəndlərini və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndini rəhbər tutaraq,

**QƏRARA ALIRAM:**

**1.** "Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti yanında Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupu"nun adı dəyişdirilərək "Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti yanında Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupu" adlandırılsın.

Scanned with CamScanner